*TQDK təkcə qəbul imtahanlarını aparmaq üçündürmü?*
*Akif MƏMMƏDOV*

Təbii ki, yox. Elə olsa idi, nazirlik səviyyəsində böyük bir komissiyanın saxlanmasına ehtiyac olmazdı. Ancaq, təəssüf ki, komissiyada çoxları belə düşünür ki, qəbul kampaniyası qurtaran kimi bu idarədə də işlər dayanmalı və ya ən yaxşı halda ləngiməlidir. Bir müddət oturub gözlədilər ki, Təhsil Nazirliyi yeni qəbulla əlaqədar təkliflərini versin, guya ancaq bundan sonra növbəti qəbul haqqında fikirləşmək olardı. Təhsil Nazirliyi də təkliflərini fevralın ikinci yarısında hazırlayıb komissiyaya təqdim edə bildi...

Əslində isə görülməli işlər çoxdur. Onlardan bir neçəsi barədə.

İndi heç kəs şübhə eləmir ki, qəbul imtahanlarına əl tapmaq o qədər də çətin deyil (təki çoxlu dolların olsun). Test üsulunun eyiblərini onun rüşvətin qarşısını ala bilməsinə görə bağışlamaq olardı. Ancaq son vaxtlar bu ehtimal da yoxa çıxır. Belə halda TQDK elə bir mexanizm haqqında fikirləşməlidir ki, orada rüşvət ehtimalı sıfra ensin. Belə bir mexanizmin tətbiqindən sonra əhali inanardı ki, ali və orta ixtisas məktəblərinə qəbul olunanlar ancaq qabiliyyətli abituriyentlərdir. Faktlar isə bunun əksini deyir. Keçən qəbul kampaniyasında daxil olanların içərisində savadsızlar da az deyil. Həm də ki belələri əvvəlki iki ilə nisbətən daha çoxdur. Bu, nə ilə bağlıdır? Əlbəttə, təkcə rüşvətlə yox. Həm də qəbuletmə mexanizminin özündə çoxlu qüsurların olması ilə. Və elə bu mexanizm digər neqativ hallarla yanaşı, rüşvət almağa da şərait yaradır. Ancaq hələ ki TQDK-da bu qüsurlu mexanizmi dəyişmək, təkmilləşdirmək barədə heç fikirləşmirlər də. (Mətbuatda bu qüsurlar haqqında çox deyilib və müvafiq təkliflər də verilib. Amma nə olsun ki?)

Hər il dövlətin müəyyənləşdirdiyi plana əsasən qəbul imtahanları aparılır. Təbii ki, plan tərtib ediləndə dövlət ehtiyacı nəzərə alır. Ancaq test üsulu tətbiq olunandan qəbul planı dolmayıb. Başqa sahələri deyə bilmərəm, ancaq keçən il hərbi ixtisaslar üçün nəzərdə tutulan yerlərin əksəriyyətinin boş qalması respublikanın indiki halında bağışlanmazdır. Görəsən, bu barədə kim düşünməlidir? Zəif tədrisin nəticəsində şagirdləri minimum balı belə toplaya bilməyən orta məktəblər, qəbul planı dolmadığından az qala "bankrot" olan ali və orta ixtisas məktəbləri, sifarişçi təşkilat kimi Təhsil Nazirliyi, ya qəbula birbaşa cavabdeh olan TQDK?

Hazırda mətbuatda və ayrı-ayrı çap məhsullarında ayrı-ayrı test nümunələrinin

dərci kütləvi hal alıb. Cəsarətlə demək olar ki, onların çoxu yararsızdır və abituriyentə düzgün istiqamət vermək əvəzinə, onu çaş-baş salır və yanlış istiqamətə yönəldir. Bu işlə bilavasitə məşğul olmalı TQDK isə indiyə kimi bir nümunəvi metodik tövsiyə və ya test kitabçası çap etdirməyib.

Məlum olduğu kimi, ötən dəfə qəbul imtahanlarına bir neçə gün qalmış (?!) müvafiq proqramlar çap edilib satışa buraxıldı. Bu il orta məktəbin tədris fənlərində xeyli dəyişiklik edilib. Sözsüz ki, bunlar qəbul proqramlarında da əksini tapmaldıır. Demək, o, təzədən işlənilməli və abituriyentlərə çatdırılmalıdır. Bəs haçan?

TQDK-nın fəaliyyətsizliyi nəticəsində camaat arasında müxtəlif şayiələr yayılır: biri deyir, testlə qəbulu ləğv ediblər, biri deyir tarixdən suallar olmayacaq və s. və i.a. Yaxşı olardı ki, Qəbul Komissiyası kütləvi informasiya vasitələrində vaxtaşırı görülən işlər barədə məlumat versin. Ancaq iş olmadığından TQDK da ictimaiyyətlə əlaqəyə bir elə həvəs göstərmir.

Qəbul Komissiyasının ali və orta ixtisas məktəblərinin əlindən alınıb TQDK-da cəmləşdirilməsi müəllimləri "pis vəziyyət"də qoydu. İndi onlar da bu "vəziyyəti" qabiliyyət imtahanlarında, ya da semestr imtahanlarında düzəltməyə çalışırlar. Və bu gün nə müəllim, nə də tələbə rüşvət alıb-verdiyini istəmir. Hətta iş o yerə çatdı ki, bəzi ali məktəblərdən rüşvət alınması məsələsinin müzakirəsi (?!) ümumi iclaslara çıxarılır və iclas rüşvət alanların üstünlüyü şəraitində keçir. Sözsüz ki, bütün vəzifə sahiblərini rüşvətxorluq və koorupsiya bürüdüyü bir vaxtda müəllimlərə bu sənətin paklığı, müqəddəsliyi haqqında "moizə oxumaq" gülüncdür. Ancaq fakt faktlığında qalır ki, minlərin, on minlərin içindən seçilib instituta qəbul edilən tələbə rüşvət burulğanında olan-qalan qabiliyyətini, biliyini də itirir və ali məktəb TQDK-nın işini layiqincə davam etdirmək əvəzinə, əksinə, onu heçə endirir. Bəs görəsən, bu, TQDK-nı narahat etmir?

Və əlbəttə, deyilənlər təkcə TQDK-nı narahat etməməlidir...

***"Azadlıq" qəzeti, 18 aprel, 1995***